**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
---------------------------------------------------------------------------------
**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

==================================================

*Əlyazması hüququnda*

**MURADOV RÖVŞƏN ATƏŞ OĞLU**

# KƏND TƏSƏRRÜFATININ MATERİAL-TEXNİKİ TƏCHİZATINDA LİZİNQ MEXANİZMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

**5312.01 – «Sahə iqtisadiyyatı»**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2013**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Aqromexanika İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə emlər doktoru, professor
**Ramil Bəylər oğlu Əliyev**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Xatirə Mail qızı Hüseynova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Oktay Qulam oğlu Məmmədli**

**Aparıcı təşkilat:** **Azərbaycan Texnologiya Universiteti**

Müdafiə «26» dekabr 2013-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «25» noyabr 2013-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müstəqilliyinin ilk dövrlərində Azərbaycan Respublikasının kənd təsərrüfatında mövcud olan əsas istehsal fondlarının vəziyyətinin kəskin ağırlaşma problemi ilə üzləşdiyi, onun aktiv hissəsində təzələnmə tempinin ləngidiyi və bu sahədə maddi-texniki təchizatın pisləşdiyi müşahidə edilirdi. Azərbaycan Respublikasının kənd təsərrüfatında böhran ümumi iqtisadi xarakterli səbəblərlə yanaşı torpaq, əmək resursları və sahənin istehsal potensialının mühüm elementi olan kənd təsərrüfatının maddi texniki bazasının mükəmməl olmaması ilə də şərtlənmişdir. Kənd təsərrüfatında mühüm istehsal sahəsinin az miqdarda maliyyələşdirilməsi səbəbindən və kifayət qədər yeni istehsal sahəsində maşın və avadanlıqların böyük hissəsinin fəaliyyətinin iqtisadi cəhətdən istifadə müddəti başa çatdığından bu sahədə müəyyən çətinliklər yaranmışdır. Respublikamızda müstəqilliyin ilk dövrlərində kənd təsərrüfatı məhsulları istehsalçılarının alıcılıq qabiliyyətinin azalması ilə əlaqədar olaraq maddi-texniki təchizat səviyyəsinin azalması vəziyyəti müşahidə olunurdu.

Kənd təsərrüfatında əsas istehsal fondlarının təzələnməsi hallarının çox zəif baş verdiyindən və səhm kapitalının yüksək dəyərə malik olduğundan müəssisədə xüsusi vəsaitlərin olmaması vəziyyəti yaranırdı. Kənd təsərrüfatının maddi-texniki təchizatında mövcud komplektləşdirilmiş mexanizmlərindən və sahənin texniki potensialının təkrar istehsalı mexanizmindən biri bu sahəyə dövlət və özəl investisiyası əsasında lizinqin verilməsidir. Belə bir iqtisadi şəraitdə lizinq, investisiya fəaliyyətinin xüsusi növü kimi geniş yer tutması ilə yanaşı kənd təsərrüfatına investisiyanın cəlb olunması probleminin həll edilməsinə kömək edər.

Kənd təsərrüfatında lizinqin çox şaxəli olması ilə yanaşı geniş mənada cəlb edilmiş resursların yerləşdirilməsi zamanı onun digər maddi-texniki təminat formaları ilə müqayisədə xüsusi yerə malik olduğundan lizinq münasibətlərinin dərindən öyrənilməsi aktuallıq kəsb edir. Hələ ki, milli və xarici təcrübə təsdiq edir ki, kənd təsərrüfatında lizinq müqaviləsinin inkişaf etdirilməsi daha az xərc formasında kənd təsərrüfatı məhsulları istehsalçılarının materiallar, kənd təsərrüfatı texnikası ilə təmin edilməsi və maşın-traktor parkının təzələnməsidir. İnkişaf etmiş xarici ölkələrin təcrübəsində bu problem ayrıca nəzəri və təcrübi aspektdə tədqiq olunmuşdur. Bu baxımdan Azərbaycan Respublikasının kənd təsərrüfatının da maddi-texniki təchizatında lizinqin yeri, rolu və onun bu sahədə səmərəli istifadəsi yolları problem kimi öyrənilərək kompleks şəkildə tədqiq olunmasına obyektiv zərurət yaranır. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, tədqiqat işinin mövzusu aktual məsələyə həsr olunmuşdur. Ona görə də məsələnin qoyuluşu müasir iqtisadi şəraitdə Azərbaycan Respublikasının kənd təsərrüfatında lizinq əməliyyatlarının inkişafı üçün mühüm aktual əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə vəziyyəti.** Müasir iqtisadi şəraitdə respublikada iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə kənd təsərrüfatının maddi-texniki təchizatında lizinq mexanizmi və onun təkmilləşdirilməsi üçün nəzəri və təcrübi məsələlərin tədqiqi iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. Hazırda respublikamızda lizinqin, o cümlədən onun kənd təsərrüfatında inkişaf problemi üzrə bilgilər milli iqtisadçı alimlərdən Z.Ə.Səmədzadənin, V.T.Novruzovun, İ.H.İbrahimovun, İ.V.Əhmədovun, A.T.Əhmədovun, R.K.İskəndərovun, V.M.Niftullayevin, Ə.Ç.Verdiyevin, M.M.Bağırovun, Ş.Ə.Axundovun, B.X.Ataşovun, F.S.Adıgözəlovun, C.C.Məmmədovun, Q.B.Hacıyevin və başqalarının əsərlərində geniş şəkildə öz əksini tapmışdır.

İnvestisiya fəaliyyətinin əsas növü kimi baxılan lizinq münasibətlərinin elmi əsasını bir sıra məşhur xarici iqtisadçı alimlərin elmi əsərləri təşkil edir. Bu problemə həmin alimlərdən P.A.Andreyevin, S.S.Akmanovun, N.M.Vasilyevin, N.N.Vilkovun, V.D.Qazmanın, V.A.Qoremıkinin, B.M.Yeremıxinin, A.A.Zanqiyevin, V.S.Zorkovun, A.Q.İvasenkonun, E.V.Kabatovun, T.A.Krasevanın, L.N.Priluçkinin, T.R.Tuskayevin, K.Y.Şpittlerin və başqalarının əsərlərində rast gəlmək olar.

Dissertasiya işində kənd təsərrüfatının maddi-texniki təchizatında lizinq mexanizminin tədqiqi nəzəri və metodoloji cəhətdən milli və xarici iqtisadçı alimlərin elmi araşdırmalarına əsaslanır.

Respublikanın aqrar sahəsində, xüsusən də kənd təsərrüfatında lizinq münasibətlərinin təkmilləşdirilməsi dövlətin aqrar siyasətinin prioriteti olmalıdır. Kənd təsərrüfatında lizinqin zəruriliyini, məqsədyönlülüyünü və inkişafını təsdiq edən dəqiq elmi istiqamətlər işlənilməlidir. Aqrolizinq də daxil olmaqla ödəmə qabiliyyətli tələbi və kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəziyyətini nəzərə alan kənd təsərrüfatı texnikasının əldə edilməsi variantları, həmçinin lizinq əməliyyatları həyata keçirilən təsərrüfat subyektləri arasında iqtisadi münasibətlərin təkmilləşdirilməsi üzrə təcrübi tövsiyələrin elmi metodikası mövcud deyildir. Mövcud olan bu kimi çatışmamazlıqlar dissertasiyanın tədqiqat mövzusunun seçilməsini zəruri etdi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi respublikada kənd təsərrüfatının maddi-texniki təchizatında lizinq mexanizminin təkmilləşdirilməsi üçün lizinqin nəzəri-metodoloji konsepsiyasını əsaslandırmaq, onun müasir vəziyyətini öyrənmək və bazar münasibətləri şəraitində kənd təsərrüfatında lizinq sisteminin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Qarşıya qoyulmuş məqsədə çatmaqt üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- lizinq münasibətlərinin inkişafını retrospektiv təhlil etmək;
- kənd təsərrüfatında lizinqin iqtisadi baxışlar çərçivəsində mahiyyətini və onun

istehsalçıların material-texnika ilə təchiz olunmasında rolunu əsaslandırmaq;
- kənd təsərrüfatında lizinq mexanizminə təsir edən amilləri aydınlaşdırmaq;
- təsnifatlaşdırılmış əlamətlər üzrə lizinqin forma və növlərinin xülasəsini vermək və təsnifat sxemini hazırlamaq;
- respublikanın kənd təsərrüfatında lizinq münasibətlərinin formalaşmasının təşkilati-hüquqi xüsusiyyətlərini və sahənin maddi-texniki təchizatının müasir vəziyyətini, o cümlədən lizinq vasitəsilə təminatın inkişaf meyllərini təhlil etmək;
- xarici təcrübədə həyata keçirilən lizinq əməliyyatlarını ümumiləşdirmək;
- kənd təsərrüfatında lizinq yolu ilə alıcılıq qabiliyyətli tələbi müəyyənləşdirmək;
- lizinq ödəmələrinin hesablanması variantlarının müqayisəli qiymətləndirilməsi üsulunu müəyyən etmək;
- kənd təsərrüfatında lizinq mexanizminin inkişafının və təkmilləşdirilməsinin əsas strateji istiqamətlərini araşdırmaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasının kənd təsərrüfatında lizinq münasibətləri şəraitində lizinq alan müxtəlif mülkiyyət kateqoriyalı istehsalçı təsərrüfat subyektləri və lizinq verən «Aqrolizinq» ASC - dir. Tədqiqatın predmeti kimi Azərbaycan Respublikasının aqrar sahəsində, xüsusən də kənd təsərrüfatının maddi-texniki təchizatında lizinqin həyata keçirilməsi məqsədi, funksiyası, xüsusiyyətləri, əsas forma və metodları çıxış edir.

**Tədqiqatın nəzəri-metodoloji əsası və informasiya mənbəyi.** Tədqiqatın nəzəri-metodoloji əsasını respublikanın və xarici ölkələrin alimlərinin lizinqə (aqrolizinqə) dair əsərləri, elmi hesabatlar, bu sahəyə aid olan dövlət proqramları, qanunlar, normativ-hüquqi aktlar təşkil edir. Tədqiqat prosesində sistemli və müqayisəli təhlil, monoqrafik öyrənmə, səbəb və nəticənin asılılığı, qrafik, məntiq-mücərrəd və statistik qruplaşdırma metodlarından, riyazi moderlləşdirmədən və s. istifadə olunmuşdur.

Tədqiqatın informasiya mənbəyi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət Statistika Komitəsinin məlumatları; «Aqrolizinq» ASC – in məlumatları; lizinq alan kənd təsərrüfatı müəssisələrinin ilkin uçot və illik hesabat məlumatları; sorğu və digər statistik məlumat materialları, o cümlədən müəllifin kənd təsərrüfatı sistemində fəaliyyət göstərən müxtəlif kateqoriyalı təsərrüfat subyektlərinin rəhbərlərindən əldə etdiyi sorğu və anket məlumatları təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:
- kənd təsərrüfatında lizinq əməliyyatı mexanizminə iqtisadiyyatın aqrar sahəsinin makro və mikro vasitələrinin çoxamilli təsiri müəyyən edilmişdir;
- ölkənin kənd təsərrüfatı sistemində fəaliyyət göstərən müxtəlif kateqoriyalı təsərrüfat subyektlərinə xarici təcrübədə lizinq əməliyyatlarından istifadəyə dair elmi cəhətdən əsaslandırılmış təkliflər verilmişdir;



- respublikada kənd təsərrüfatı müəssisələrinin alıcılıq qabiliyyəti və maliyyə vəziyyəti nəzərə alınmaqla lizinq potensialı müəyyən edilmişdir;
- lizinq münasibətləri şəraitində kənd təsərrüfatı üçün texniki vəsaitlərin əldə edilməsi variantlarının səmərəliliyi müəyyənləşdirilmişdir;
- kənd təsərrüfatının maddi-texniki təchizatında lizinq əməliyyatları mexanizminin təkmilləşdirilməsi üzrə tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiyanın nəticələrinin təcrübi əhəmiyyəti kənd təsərrüfatının maddi-texniki təchizatında lizinqin təkmilləşdirilməsi mexanizmi və tövsiyələrinin işlənib hazırlanmasından ibarətdir. Müəllifin əldə etdiyi nəticələr kənd təsərrüfatı istehsalının texniki potensialının idarə edilməsi konsepsiyasının işlənməsi, respublikanın kənd təsərrüfatının maşın-traktor parkının tamamlanması üçün tövsiyələrin hazırlanmasının əsası kimi çıxış, həmçinin dövlətin mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsinin əsası kimi çıxış edə bilər. Lizinq də daxil olmaqla texnikanın əldə edilməsi variantları üzrə metodiki tövsiyələr Azərbaycan Respublikasının lizinq xidmətləri bazarında («Aqrolizinq» ASC – də) lizinq verənlə lizinq alan arasında qarşılıqlı əlaqənin inkişafı təcrübəsində öz əksini tapmışdır.

**Tədqiqatın aprobasiyası və nəticələrin tətbiqi.** Tədqiqatın nəticələri AzETKTİ və Tİ-da «Aqrobiznesin inkişaf problemləri» (Bakı, 2007), «İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemləri» (Bakı, 2010), o cümlədən AMEA-nın İqtisadiyyat İnstitutunda «Aqrar münasibətlər və kənd təsərrüfatının inkişaf problemləri» (Bakı, 2010), həmin institutun Lənkran Dövlət Universiteti ilə birgə «Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meylləri» (Lənkəran, 2010), akademik Z.Ə.Səmədzadənin 70 illik yubileyinə həsr olunmuş «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri» (Bakı, 2010) və «Aktual elmi nailiyyətlər» (Praqa, 2011) mövzularında respublika və beynəlxalq elmi-praktik konfranslarının materiallarında öz əksini tapmışdır.

Dissertasiya ilə bağlı 15 məqalə elmi-nəzəri jurnallarda (4 məqalə), institutun elmi toplu və əsərlərində (6 məqalə), konfranslarda (1məqalə və 4 tezis) dərc edilmişdir. Dərc edilmiş işin ümumi həcmi 6,08 çap vərəqindən ibarətdir.

Dissertasiyanın ayrı-ayrı bölmələri və nəticələri ali məktəblərdə kənd təsərrüfatında lizinqə (aqrolizinqə) aid tədris proqramının hazırlanmasında istifadə edilə bilər. Tədqiqat işində irəli sürülmüş bir sıra təkliflər «Aqrolizinq» ASC-də istifadə olunaraq müsbət nəticələr əldə olunmuşdur (arayış № ASC /2-150. 15.03. 2010-cu il).

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya girişdən, 3 fəsildən, nəticədən, istifadə edilmiş ədəbiyyatdan (150 adda) və əlavələrdən ibarət olmaqla tam həcmi 166 səhifədir. Dissertasiyada 22 cədvəl, 17 illüstrasiya və 23 səhifə həc-

mində 9 əlavələr göstərilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə dissertasiya işinin aktuallığı əsaslandırılmış, onun öyrənilmə səviyyəsi araşdırılmış, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, işin elmi yeniliyi və təcrübi əhəmiyyəti öz əksini tapmışdır.

Dissertasiya işinin birinci fəsli **«Kənd təsərrüfatının maddi-texniki təchizatında lizinq mexanizminin nəzəri əsasları»** adlanır. Bu fəsildə lizinq münasibətlərinin iqtisadi inkişafının tarixi dövrləri göstərilmiş, müasir baxışlar çərçivəsində onun məzmunu və iqtisadi mahiyyəti, həmçinin aqrolizinq də daxil olmaqla lizinqin formaları tipləri və növləri öz əksini tapmışdır.

Müasir iqtisadi şəraitdə müstəqil respublikamızda lizinq anlayışının yeni olmasına baxmayaraq xarici təcrübədə bu anlayış kifayət qədər geniş dövrü əhatə edir. Lizinq əməliyyatlarının mahiyyətinin açılması hələ qədim dövrdə Aristotelin dövrünə təsadüf edir. Lizinq mənfəət əldə etmək üçün məhsul istehsalçılarının hər hansı bir mülkiyyət üzərində hüquqa malik olmaları zəruri deyil, yalnız ondan istifadə hüququ olmalı və son nəticədə mənfəət əldə etməlidir. Beləliklə, öz mahiyyətinə görə mənimsəmə, mülkiyyət və mülkiyyətdən əldə edilən mənfəətin bölgüsü hüququ qədim dövrdən məlumdur.

Bir sıra tədqiqatçılar tərəfindən düzgün olaraq lizinqin inkişafını psixoloji maneənin aradan qaldırılması və istehlakçıların mülkiyyət hüququnu ondan istifadə hüququndan fərqləndirən yeni nəzəriyyə meydana gəldi. Belə bir şəraitdə iqtisadi təfəkkürün transformasiyası baş verdi. Respublikamızda yerli bazarda lizinq əməliyyatlarının inkişafı xüsusən müəssisələrin təsərrüfatçılığın icarə formasına çevrilməsi ilə əlaqədar olaraq müstəqillik əldə etdikdən sonrakı dövrə təsadüf edir.

Kənd təsərrüfatında xüsusi təsərrüfatların inkişafı və sahibkarlığın formalaşdığı şəraitdə məhsul istehsalının artırılması və iqtisadi səmərəliliyin yüksəldilməsi maddi-texniki təchizatla təminatın yaxşılaşdırılmasından və onlardan səmərəli istifadə eidlməsindən asılıdır. Kənd təsərrüfatında maddi-texniki bazanın düzgün formalaşdırılması maddi-texniki təchizat sisteminin təkmilləşdirilməsi, onun bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılmasını mühüm vəhdət kimi qarşıya qoyur. Respublikamızda bu məsələlərin həlli üçün lizinq sisteminin formalaşdırılmasına ehtiyac duyulurdu.

Keçən əsrin 90-cı illərinin birinci yarısında bazar münasibətlərinin formalaşması nəticəsində əvvəllər iqtisadiyyatda mövcud olmayan bir sıra bazar alətlərindən banklar, kredit təşkilatları və təsərrüfat subyektləri istifadə etməyə başladılar. Belə alətlərdən biri ikişaf etmiş xarici ölkələrdə geniş istifadə olunan və yeni investisiya mənbəyi kimi çıxış edən maliyyə icarəsi və ya lizinqdir. Beləliklə, yeni termin kimi «lizinq»dən istifadə olunması əvvəllər Azərbaycan Respublikasında istifadə



edilməyən yeni icarə növünün – maliyyə lizinqinin fərqləndirilməsini tələb edir. Dövlətin qarşısında duran əsas vəzifələrdən biri respublikamızda maliyyə və operativ lizinqin inkişaf etdirilməsidir. Bu sahədə müvafiq sahibkarlıq fəaliyyətini tənzimləyən ilk normativ hüquqi akt 1994 - cü ildə meydana gəldi.

Lizinq prosesi əmlakın lizinq əməliyyatlarının iştirakçıları arasında dövr edən mülkiyyət münasibətləri kompleksində əks olunur. Ona görə də iqtisadi-hüquqi kateqoriya kimi lizinq özündə müvəqqəti sərbəst və ya cəlb olunmuş maliyyə vasitələrinin istifadəsinə istiqamətlənmiş xüsusi sahibkarlıq fəaliyyətidir, bu zaman maliyyə icarəsi (lizinq) müqaviləsinə görə icarə verən (lizinqə verən) müvafiq razılaşma ilə əmlakın müvafiq satıcıya verməsi və bu əmlakı icarədara (lizinq alana) sahibkarlıq məqsədləri üçün istifadəyə görə müəyyən ödənişlə verməsi hüququnu qəbul edir.

Lizinqin obyekti kimi bazarda sərbəst dövr etməsi məhdudlaşdırılan vəsaitlər istisna olmaqla əsas vəsaitlərin təsnifləşdirilən istənilən hərəkət edən və ya hərəkətsiz əmlak növü çıxış edir. Klassik baxımdan lizinq sazişi zamanı lizinq subyektləri arasında qarşılıqlı əlaqə aşağıdakı sxem üzrə qurulur: konkret və ya müəyyən növ əmlakın (avadanlıq, texnika) almaqda maraqlı olan potensial (gələcək) lizinq alan, mövcud olan informasiya, təcrübə, tövsiyyə, müəyyən müqavilələrin nəticəsi olaraq tədarükçünün sərəncamında olan bu əmlakın müstəqil alınması.

Lizinq əməliyyatı bank və ya kommersiya icarəsi ilə müqayisədə daha yüksək səviyyəli sahibkarlıq fəaliyyəti hesab edilir. Belə ki, o daha geniş diapazona malik bilik və maliyyə biznesi, istehsal, avadanlıq və əmlak bazarı, həmçinin müştərinin dəyişən tələbi və icarə xüsusiyyəti ilə iş tələb etməsilə ona imkan verir. Həqiqətən lizinqə özündə təşkilati-iqtisadi münasibətlərin icarə, kredit və ticarət kimi üç formasını əks etdirən xüsusi sahibkarlıq fəaliyyət növü kimi baxmaq olar. Lizinq və icarə münasibətləri arasında bir sıra ümumi oxşarlıqlarla yanaşı fərqli cəhətlər də vardır.

Lizinq və uzunmüddətli icarə arasında dissertasiya işində qeyd edilən ümumi oxşar və fərqli cəhətlər fikrimizcə, həmin sahibkarlıq fəaliyyəti növünün iqtisadi mahiyyətini ümumiləşdirir. Təcrübədə fəaliyyət göstərən və qanunvericilikdə mövcud olan geniş sayda monoqrafik mənbələrin öyrənilməsi bizə lizinqin mahiyyət xarakteristikasını aşkar etməyə və hətta müəyyən dərəcədə onun mahiyyət aparatını genişləndirməyə imkan verdi.

Bir sıra müəlliflər lizinq anlayışını sırf iqtisadi, digərləri isə sırf təsərrüfat əməliyyatına aid edirlər. Qeyd edilən mahiyyəti biz daha da genişləndirə bilərik. Bizim monoqrafik mənbələr üzrə apardığımız tədqiqat göstərir ki, «lizinq»in mahiyyəti geniş mənada çoxluq təşkil edir. Lizinq müqaviləsində son məqsəd yeni texnika və mütərəqqi texnologiyanın nailiyyətlərindən iqtisadi səmərənin əldə

olunması hesabına, daşınan və daşınmaz əmlakdan istifadə edilməsidir. Dissertasiya işində qeyd olunanlardan heç biri fərqli təsnifat növü kimi lizinqin mahiyyət aparatını, tipik göstəricilərin üzrə çıxarılmasını və fərqli xüsusiyyətlərin aşkar edilməsini zənginləşdirmir.

Azərbaycan Respublikasında iqtisadi prosesin subyektləri arasında lizinq münasibətləri üzrə qanunvericilik bazasını araşdırarkən onu daxili və beynəlxalq lizinq formalarına bölmək olar. Təcrübədə olduğu kimi əksər tədqiqatçılar lizinqin maliyyə, qaytarılan və operativ lizinq kimi 3 əsas növünü fərqləndirirlər. Monoqrafik mənbələrin öyrənilməsi prosesində lizinqin daha 5 növü – «standart» lizinq, qarışıq lizinq, «tədarükçü» lizinqi, kompleks lizinq və sahəvi lizinq (aqrolizinq) müəyyən edilmişdir.

Aqrolizinq – elə bir qarşılıqlı iqtisadi təsir formasıdır ki, bu zaman lizinq verən və lizinq alan (kənd təsərrüfatı istehsalçıları) maliyyə icarəsi bəhanəsi ilə qarşılıqlı faydalı münasibətə daxil olurlar. Bu zaman kreditə satışın əlamətləri (ticarət əməliyyatı), kirayə və icarə (eyni zamanda alış hüququ ilə), həmçinin tərəfdaşlar arasında müqavilə münasibətlərinin əlamətləri meydana çıxır. Aqrolizinqə verilən bu tərif kənd təsərrüfatı sahələri üçün xarakterikdir. Yerinə yetirdiyimiz dissertasiya işində biz lizinq və lizinq münasibətlərinə kənd təsərrüfatına uyğun olaraq, həmçinin sahəvi aspektdə yanaşmışıq.

Kənd təsərrüfatı lizinqinin inkişafına gəldikdə isə burada 3 problemi qeyd etmək lazımdır: yerli və dövlət büdcəsindən lizinq məqsədləri üçün ayrılmış vəsaitin kifayət qədər olmaması; kənd təsərrüfatı istehsalçılarının lizinq ödənişlərini vaxtında və tam qaytarmaması, o cümlədən lizinqə verilmiş kənd təsərrüfatı texnikasından istifadənin az iqtisadi səmərəyə malik olması.

Araşırmalardan məlum olur ki, aqrolizinq çox mənalı anlayışdır və o, maliyyə, kredit, mühasibat uçotu, lizinq münasibətlərinin həyata keçirilməsinə nəzarət və lizinq müqaviləsi şərtlərinin yerinə yetirilməsi kimi komponentlər ardıcıllığından ibarət olan ümumiqtisadiyyat pospulatlarını sahəvi xüsusiyyətlər çərçivəsində özündə əks etdirir.

Dissertasiya işinin ikinci fəsli **«Kənd təsərrüfatının maddi-texniki təchizatının lizinq əsasında təmin olunmasının müasir vəziyyəti»** adlanır. Bu fəsildə Azərbaycan Respublikasının kənd təsərrüfatında lizinq münasibətlərinin formalaşmasının təşkilati-hüquqi xüsusiyyətləri və istehsalçıların lizinq vasitəsilə dəstəklənməsinin mövcud vəziyyəti öyrənilmiş, o cümlədən bu sahənin maddi-texniki təchizatında lizinq xidməti bazarının inkişaf meyllərini və lizinq potensialını qiymətləndirmişik.

Müstəqilliyinin ilk dövrlərində Azərbaycan Respublikasında lizinq əməliyyatlarını tənzimləyən inkişaf etmiş qanunvericilik bazası formalaşmamışdır. Bununla yanaşı 29 noyabr 1994-cü ildə qəbul olunmuş «Lizinq xidməti haqqında»



Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi xüsusən kənd təsərrüfatında lizinq əməliyyatlarının həyata keçirilməsinin hüquqi bazasını xeyli möhkəmlətmiş və genişləndirmişdir. Bu hüquqi əsasın əksər müddəalarının Azərbaycan Respublikasının Mülki Məcəlləsinə daxil edilməsi ilə əlaqədar olaraq qanun 17 iyul 2003-cü ildə qüvvədən düşdü. Lakin bu cür normativ-hüquqi baza regional xüsusiyyətləri tam həcmdə nəzərə ala bilməzdi. Bununla əlaqədar biz respublikanın kənd təsərrüfatında regional səviyyədə fəaliyyət göstərən müxtəlif kateqoriyalı təsərrüfat subyektləri arasında aqrolizinq münasibətlərinin inkişaf xüsusiyyətlərini araşdıraraq tədqiq etmişik.

Müasir iqtisadi şəraitdə respublikaının kənd təsərrüfatı sahəsində qarşıda duran başlıca vəzifələrdən biri istehlakçının zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaqdan, keyfiyyətli məhsul yetişdirməkdən və onun itkisiz yığılmasını təmin etməkdən ibarətdir. Kənd təsərrüfatının müasir texnika ilə təchizatı məsələlərinin çevik şəkildə tənzimlənməsini təmin etmək məqsədilə 23 oktyabr 2004-cü il tarixli 468 nömrəli «Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı qüvvəyə mindi.

Azərbaycan Respublikasında aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində artıq bir neçə ildir ki, aqrar sahədə daxili istehsal hesabına əhalinin bir sıra kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi mümkün olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən müddətli vergi güzəştləri ilə bərabər, keçən ildən dövlət tərəfindən onlara yanacaq, motor yağlarının və mineral gübrələrin alınmasında güzəştlər edilir,dövlət və özəl toxumçuluq təsərrüfatlarına yetişdirdikləri toxumlara görə subsidiyalar verilir. Bununla yanaşı kənd təsərrüfatı məhsulları istehsalçılarının buğda toxumuna, mineral gübrələrə və damazlıq heyvanlara olan ciddi ehtiyacı ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində əlavə tədbirlərin görülməsini şərtləndirir.

«Aqrolizinq» ASC yarandıqdan indiyədək respublikada kənd təsərrüfatının texnika ilə, texniki avadanlıqlarla, gübrə, yanacaq və s. ilə təminatını yaxşılaşdırmaq məqsədilə dölvət büdcəsindən və digər mənbələrdən bu quruma dəstək kimi ayırmalar edilir (cədvəl 1).

Cədvəl 2-dən məlum olur ki, 2005-ci ildə dövlət büdcəsindən «Aqrolizinq» ASC-nə 25 milyon manat vəsait ayrılmışdır ki, bu da cəmi dövlət büdcəsi xərclərinin 0,013%-ni təşkil edirdi. Son illərdə cəmiyyətə dövlət büdcəsindən ayrılan vəsaitin miqdarı artımışdır. Belə ki, 2006-ci ildə müvafiq olaraq 41 milyon manat (0,01%), 2007-ci ildə 37,5 milyon manat (0,007%), 2008-ci ildə 72,5 milyon manat (0,009%), 2009-cu ildə 48,23 milyon manat (0,004%), 2010-cu ildə 44,6 milyon manat (0,004%), 2011-ci ildə 46,8 milyon manat (0,004%), 2012-ci ildə 55 milyon manat (0,003%) vəsaitin ayrılması nəzərdə tutulmuşudur.

Cədvəl 1

«Aqrolizinq» ASC-nə dövlət büdcəsindən və digər mənbələrdən ayrılması nəzərdə tutulan vəsaitin dinamikası

| İllər | «Aqrolizinq» ASC-nə ayrılmış vəsait, milyon AZN | Dövlət büdcəsi xərclərinin cəmi, milyon AZN | Dövlət büdcəsindən «Aqrolizinq» ASC-nə ayrılmış vəsaitin xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| 2005 | 25 | 2000,2 | 0,013 |
| 2006 | 41 | 3594,3 | 0,01 |
| 2007 | 37,5 | 5714,7 | 0,007 |
| 2008 | 72,5 | 8518,9 | 0,009 |
| 2009 | 48,23 | 12355 | 0,004 |
| 2010 | 44,6 | 11264 | 0,004 |
| 2011 | 46,8 | 12748 | 0,004 |
| 2012 | 55 | 16984 | 0,003 |

Təşkilati-hüquqi sənədlərin daim təkmilləşdirilməsi, nəticə etibarilə respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş müxtəlif proqramların işlənib hazırlanması və qəbul edilməsi ölkədə aqrolizinq əqdlərinin iqtisadi-hüquqi təminatı mexanizminə müvafiq düzəlişlər olunmasını tələb edir.

Müasir iqtisadi şəraitdə respublikamızın kənd təsərrüfatında fəaliyyət göstərən müxtəlif kateqoriyalı təsərrüfat subyektləri aqrar islahatların uğurlu dönüş dövrünü yaşadı. Həyata keçirilən uğurlu islahatlar nəticəsində respublikada çoxukladlı iqtisadiyyat fəal inkişaf edir, kooperasiya və inteqrasiya prosesləri gedir, kənd təsərrüfatı müəssisələrinin maliyyə vəziyyətinin sağlamlaşdırılması, kooperativ-korporativ tipli inteqrasiya qurumları yaradılması üçün səy göstərilir. Lakin müşahidə olunan müsbət hallarla yanaşı hər bir ölkədə olduğu kimi keçid dövrünü yaşadığı dövrdə respublikamızda kənd təsərrüfatı əmtəə istehsalçılarının vəziyyətində müəyyən çətinliklər mövcud idi. Bəzi ekspertlərin fikrincə, bu vəziyyətin əsas səbəblərindən biri də qiymət dispariteti, maliyyə-kredit siyasətinin mükəmməl olmaması və başqa amillərlə yanaşı maddi-texniki bazanın dağıdılması, kənd təsərrüfatı maşın və mexanizmlərinin sayının azaldılması, onların texniki hazırlıq əmsalının aşağı düşməsidir (cədvəl 2).

Cədvəl 2-in məlumatlarından aydın olur ki, son dövrlərdə respublikamızda əsas növ kənd təsərrüfatı texnikasının miqdarı azalmağa başlamışdır. Cədvəldə əks olunan məlumatlar eyni zamanda 2005-ci ildə sonuncu kənd təsərrüfatı siyahıyaalınmasına qədər olan dövrləri də əhatə etməklə 2012-ci ilə aiddir. Beləliklə, 1995-ci illə müqayisədə 2012-ci ildə traktorların sayı 36,5% azalaraq 21073 ədəd olmuşdur. Bu dövrdə müvafiq olaraq kotanların sayı azalaraq 3278 ədəd (62,6%), kultivatorların sayı 893 ədəd (80,2%), toxumsəpənlərin sayı 1867 ədəd (72,1%), otbiçənlərin sayı 884 ədəd (57,7%), sıxıbbağlayanların sayı 1495 ədəd (54,3%), taxıl



yığanların sayı 1724 ədəd (59,6%), qarğıdalıyığanların sayı 3 ədəd (98,7%), yem yığanların sayı 654 ədəd (39,2%), pambıqyığanların sayı 41 ədəd (98,4%), çuğunduryığanların sayı 9 ədəd (52,6%), bərk mineral gübrələri dağıdanların sayı 9 ədəd (52,6%), çiləyici və tozlayıcıların sayı 622 ədəd (85,3%) təşkil etmişdir.

Cədvəl 2

Kənd təsərrüfatı müəssisələrində (yardımçı təsərrüfatlardan başqa) əsas növ kənd təsərrüfatı texnikasının mövcud vəziyyəti (ilin sonuna)

| Texnikanın adı | 1995 | 2005 | | 2012 | |
|---|---|---|---|---|---|
| | | Ədəd | 1995-ci ilə nisbətən faizlə | ədəd | 1995-ci ilə nisbətən faizlə |
| Traktorlar - cəmi | 33174 | 14887 | 44,9 | 21073 | 63,5 |
| Kotanlar | 8770 | 3019 | 34,4 | 3278 | 37,4 |
| Kultivatorlar | 4512 | 1009 | 22,4 | 893 | 19,8 |
| Toxumsəpənlər | 6702 | 1412 | 21,1 | 1867 | 27,9 |
| Otbiçənlər | 2088 | 1056 | 50,6 | 884 | 42,3 |
| Sıxıbbağlayanlar | 3269 | 903 | 27,6 | 1495 | 45,7 |
| Taxılyığanlar | 4273 | 1298 | 30,4 | 1724 | 40,4 |
| Qarğıdalıyığanlar | 239 | 43 | 18 | 3 | 1,3 |
| Yemyığanlar | 1075 | 139 | 12,9 | 654 | 60,8 |
| Kartof yığanlar | 13 | 10 | 76,9 | 18 | 138,5 |
| Pambıqyığanlar | 2653 | 22 | 0,8 | 41 | 1,6 |
| Çuğunduryığanlar | 19 | 16 | 84,2 | 9 | 47,4 |
| Bərk mineral gübrələri dağıdanlar | 1676 | 135 | 1,1 | 114 | 6,8 |
| Çiləyici və tozlayıcılar | 4247 | 201 | 5 | 622 | 14,7 |

Kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətinin təhlili göstərir ki, «Aqrolizinq» ASC-nin yarandığı dövrə qədər təkcə zəruri miqdarda traktor, kombayn, yanacaq-sürtgü materialları və gübrələrin olmaması ucbatından xeyli miqdarda əkinə yararlı, şumlanan torpaq sahələri becərilmirdi. Məhsul yığımının normativ müddətlərinə riayət edilməməsi üzündən (kombaynların yüksək gərginliklə işləməsi ilə əlaqədar), eləcə də texnikanın xeyli köhnəlməsi səbəbindən, mövsüm ərzində dənli bitkilərin məhsulunun itkisi 25-30%-ə çatır.

Qiymət disparitetinin getdikcə artması, bütün mülkiyyət formalarına aid olan kənd təsərrüfatı əmtəə istehsalçılarının mürəkkəb maliyyə vəziyyəti ilə əlaqədar, həmin təsərrüfatların zəruri miqdarda kənd təsərrüfatı texnikası və ehtiyat hissələrlə təmin edilməməsi səbəbindən vəziyyət daha da gərginləşmişdir. Belə ki, 2009-2012-ci illərdə kənd təsərrüfatı məhsullarının qiymətlərinin artdığı halda kənd təsərrüfatında istehlak edilən sənaye məhsullarının qiyməti daha çox artmışdır. Kənd

təsərrüfatında qiymət dispariteti ilə cədvəl 4-ün məlumatlarına əsasən tanış olmaq olar.

Hesablamalar göstərir ki, müasir iqtisadi şəraitdə, məsələn taxılyığan kombaynların əldə olunması üçün 2009-cu ildə 198,6 ton taxıl satmaq lazım gəlirdi (sair taxıldöyən maşın və mexanizmlərə 14,7 ton, meyvəköklüləri yığan maşın və mexanizmlərə 40 ton) (cədvəl 3).

Cədvəl 3

Vahid sənaye məhsulunun qiymətinin taxılın miqdarı ilə ekivalentliyi (ton)

| Texnikanın adı | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|
| Kotanlar | 6,8 | 1,3 | 2,2 | 4 |
| Diskli dırmıxlar | 2,4 | 2,4 | 7,1 | 1,6 |
| Digər dırmıxlar, kətmən, kultivatorlar və kərkilər | 2,5 | 1,3 | 1,7 | 3,1 |
| Toxumsəpən, əkən və şitilbasdıran maşınlar | 7,8 | 12,9 | 16,9 | 13,8 |
| Kübrə səpələyiciləri və paylayıcıları | 5 | 9,8 | 12,7 | 10,4 |
| Torpağın işlənməsi üçün sair kənd təsərrüfatı maşın və mexanizmləri | 7,4 | 23,1 | 6,6 | 8 |
| Digər otbiçən maşınlar | 0,7 | 3,7 | 2,8 | 2,3 |
| Traktora bərkidilən və digər otçalanlar | 0,7 | 1,9 | 0,9 | 0,5 |
| Küləşyığan maşınlar | 1,8 | 0,6 | 0,7 | 1,1 |
| Küləş və saman presləyən maşınlar | 19,3 | 15,9 | 5,3 | 8,9 |
| Taxılyığan kombaynlar | 198,6 | 202,6 | 150,1 | 157,2 |
| Sair taxıldöyən maşın və mexanizmlər | 14,7 | 4,8 | 17,1 | 21,2 |
| Meyvəköklüləri yığan maşın və mexanizmlər | 40 | 58,8 | 61,5 | 16,6 |

Qeyd etmək lazımdır ki, respublikanın kənd təsərrüfatı müəssisələrinin aldığı sənaye məhsullarının və xidmətlərin qiymət artımı əvvəlki illərlə müqayisədə satış qiymətlərinin artımından kəskin şəkildə çox olmuşdur. Nəticədə kənd təsərrüfatı ilə sənaye arasında bu cür qeyri-ekvivalent mübadilə istehsal xərclərinin artmasına gətirib çıxarmış, 1990-cı ilə qədər respublikada kənd təsərrüfatı rentabelli sahə olduğu halda, indi o, zərərlə işləyən sahəyə çevrilmişdir. Onu da nəzərə almaq lazımdır ki, kənd əməkçilərinin aldığı faktiki əmək haqqı kənd təsərrüfatı məhsullarının maya dəyərinə daxil edilir, həmin əmək haqqının nominal qiyməti isə müqayisə edilən dövr ərzində kənddə istehlak edilən sənaye məhsulları üçün çəkilən xərclərdən aşağı sürətlə artmışdır. Kənd təsərrüfatı əmtəə istehsalçılarının alıcılıq qabiliyyətinin aşağı olması səbəbindən respublikaya kənd təsərrüfatı texnikası satışının həcmi nəzərə çarpacaq dərəcədə azalmışdır.

Kənd təsərrüfatı texnikasının istifadəsindən əldə edilən iqtisadi səmərəni hesab-



lamaq üçün onun istismarda olduğu birinci il üçün xüsusi düstur təklif etmişik. Analoji qaydada lizinq müqaviləsinin qüvvədə olduğu bütün müddət (5-7 il) üçün aqrolizinq obyektinin istifadəsindən alınan iqtisadi səmərəni hesablamaq olar.

Azərbaycan Respublikası Prezidenti cənab İ.H.Əliyevin 23 oktyabr 2004-cü il tarixli Sərəncamı əsasında «Aqrolizinq» ASC yaradıldıqdan sonra bu cəmiyyət respublikada aqrolizinq xidmətləri bazarında aparıcı mövqeyə mlik oldu. Əslində Azərbaycan Respublikasında regional səviyyədə lizinq xidmətlərinin yerinə yetirilməsi bu cəmiyyətə tapşırılmışdır. Dövlət büdcəsinin vəsaitləri hesabına maliyyələşdirilən «Aqrolizinq» ASC kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarların sifarişləri əsasında sərfəli tariflə əkin, səpin, becərmə, məhsul yığımı və s. adlarda (cəmi 20 addan çox) müxtəlif xidmət işləri yerinə yetirir, həmçinin məhsulun müasir texnologiyaya uyğun istehsalında onlara köməklik göstərir.

Tədqiqat prosesində biz indeks metodundan istifadə etməklə lizinq potensialının hesablanması metodikasını təklif etmişik. Lizinq potensialı dedikdə kənd təsərrüfatı əmtəə istehsalçılarının aqrolizinq müqaviləsi əsasında texnika, elit toxumlar və kənd təsərrüfatı heyvanları almaq imkanını nəzərdə tuturuq. Lizinq potensialı respublikanın kənd rayonları və dörd təbii-iqlim zonası üzrə hesablanmışdır. Lizinq potensialı anket sorğusunun nəticələri nəzərə alınmaqla konkret ərazidə fəaliyyət göstərən hər bir kənd təsərrüfatı əmtəə istehsalçısının lizinq müqaviləsi üzrə texnika almaq imkanı kimi müəyyən edilmişdir.

Kənd təsərrüfatı əmtəə istehsalçısının lizinq potensialı dedikdə bu və ya digər zona üçün qüvvədə olan normativlərə uyğun olaraq tədiyə qabiliyyətli tələb ilə maşın-traktor parkının tam dəstləşdirilməsi üçün maliyyə vəsaitlərinə ehtiyac arasındakı nisbət nəzərdə tutulur.

Dissertasiya işinin tədqiqi prosesində biz «Aqrolizinq» ASC-nin mütəxəssisləri ilə birlikdə aqrolizinq xidmətlərinin təqdim edilməsinin təşkilinə və nəzarət məsələlərinə yeni yanaşmalar işləyib hazırlamışıq. ASC-in təşkilatı-idarəetmə fəaliyyətinə xüsusi texniki vasitələrin tətbiq edilməsi barədə qərar qəbul edilmiş, lokal hesablama (kompyuter) şəbəkəsi təşkil edilmiş, «Aqrolizinq» proqramı işlənib hazırlanmışdır. «Aqrolizinq» proqramı vasitəsilə lizinq müəssisəsində idarəetmə qərarları qəbul edilərkən regional aqrar-sənaye kompleksi sistemində aqrolizinq əqdlərinin monitorinqinin nəticələri nəzərə alınır.

«Aqrolizinq» kompyuter proqramının tətbiq edilməsi aqrolizinq əqdlərinin keyfiyyətini yaxşılaşdırmağa, idarəetmə işçilərinin sayını azaltmağa, ən başlıcası – elmi cəhətdən əsaslandırılmış idarəetmə qərarları qəbul etməyə imkan vermişdir.

Lizinq kənd təsərrüfatı əmtəə istehsalçısına əlavə vəsait lazım olan bütün hallarda yararlı çarə sayıla bilməz. Aqrar sahədə fəaliyyət göstərən müxtəlif kateqoriyalı müəssisə və təşkilatların biznes planları, onların strateji inkişaf planları işlənib hazırlanarkən kreditlər, borclar, icarə kimi vasitələr də nəzərə alınmalıdır. Lakin kənd

təsərrüfatı texnikası, müvafiq avadanlıqlar və istehsal vasitələri alınmasından söhbət gedəndə lizinq ən yaxşı, etibarlı və nisbətən ucuz başa gələn maliyyə vasitəsidir. Fikrimizcə, məqsədli büdcə maliyyələşdirməsi vəsaitləri cəlb edildikdə aqrar sahədə avadanlıqların lizinqi daha yüksək səmərə verir, çünki lizinq müddətində (3-5 il) avadanlığın dəyəri artmır.

Dissertasiya işinin üçüncü fəsli **«Kənd təsərrüfatında lizinq sisteminin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətləri»** adlanır. Bu fəsildə dünya ölkələrinin təcrübəsində lizinqin inkişaf xüsusiyyətləri və onun respublikanın kənd təsərrüfatında tətbiqi yolları araşdırılmış, bu sahədə lizinq yolu ilə istehsalçıların texnikaya olan ehtiyacını ödəmək üçün alıcılıq qabiliyyətli tələb müəyyənləşdirilmiş və lizinq ödəmələrinin hesablanması variantlarının müqayisəli qiymətləndirilməsi üsulu təklif olunmuş, o cümlədən kənd təsərrüfatında lizinq mexanizminin inkişafının və təkmilləşdirilməsinin əsas strateji istiqamətləri müəyyən edilmişdir.

Kənd təsərrüfatında lizinq əməliyyatlarının xarici ölkələrdə inkişafına dair monoqrafiq araşdırmalarımızdan belə qənaətə gəlmişik ki, son illərdə bu əməliyyatlar dünyanın bir çox inkişaf etmiş ölkələrində iqtisadiyyatın sabitləşdirilməsi və inkişafının əsas vasitələrindən birinə çevrilib. Lizinq dünya kapital bazarında vacib rol oynayır və bir sıra iqtisadi qüdrətə malik qərb ölkələrində yeni investisiyaların 30%-dən çoxu onun payına düşür. Araşdırmalar nəticəsində xarici ölkələrdə lizinqin inkişafının bir sıra xüsusiyyətlərini müəyyəndirmişik:

Lizinqin inkişafı üzrə xarici ölkələrin təcrübəsindən istifadə edərək respublikamızın kənd təsrrüfatında maddi-texniki təchizatın yaxşılaşdırılması məqsədilə müəyyən yolların nəzərə alınmasını vacib hesab edirik.

Beləliklə, zəngin təcrübəyə malik inkişaf etmiş ölkələrin lizinq əməliyyatlarının həyata keçirilməsinə dair təcrübəsindən bəhrələnməklə respublikamızın kənd təsərrüfatında lizinq münasibətlərinin inkişafına yüksək səviyyədə nail olmaq mümkündür.

Tədqiqat prosesində amillərin iki böyük qrup (makroiqtisadi və sistemdaxili amillər) şəklində ranqlaşdırılması ilə yanaşı, əlavə təsnifat əlamətlərini aşkar etmişik. Həmin amilləri aşağıdakı meyarlara əsasən 6 qrupa bölmək olar: amillərin səviyyəsi, dərəcəsi, yaranma vaxtı, təsir dairəsi, amillərin yaranma təbiəti, onların idarə edilmə dərəcəsi. Məsələn, təsir dərəcəsinə görə amillər ekstremal, motivasiya və demotivasiya amillərinə bölünə bilər. Tədqiqat prosesində proqnozlaşdırma (ekspert qiymətləndirmələri) metodundan istifadə edilməklə bazar mühitində (turbulent mühitdə) kənd təsərrüfatı müəssisələrinin davamlı inkişafı üçün kənar təhlükələr və imkanlar təhlil edilmişdir. Bu tədqiqatın məqsədi lizinq alanın həm respublika səviyyəsində, həm də region səviyyəsində lizinq üzrə lizinq əqdlərinin həyata keçirilməsi imkanlarını öyrənməkdir. İqtisadi, siyasi, bazar, rəqabət,



istehsal-texniki, sosial və beynəlxalq amillərin hər bir qrupunun təsiri aşağıdakı düsturla müəyyənləşdirilir:

İmkan: $+W_i = K_i \sum(+P_{ij})$ (1), Təhlükəli: $-Q_i = K_i \sum(-P_{ij})$ (2),

burada, $(+P_{ij})$, $(-P_{ij})$ - i - ci qrup amillərin j qrup amilinə təsir gücü müvafiq olaraq müsbət (0 - dan +5-dək) və mənfi (0-dan – 5-dək) qiymətləndirilir;

$K_i$ - i - ci qrup amillərin əhəmiyyəti.

Ekspertlərin sayı aşağıdakı düsturla hesablanır:

$$N_{min} = 0,5 * (3/b + 5) \quad (3),$$

Normativin xətası $0 < b < 1$.

Amillərin təsirini (təsir səviyyəsini) ekspertlər beş ballı şkala üzrə qiymətləndirirlər. Balların dairəsi (diapazonu): +5 bal – güclü imkan; - 5 bal – güclü təhlükə; 0 – təsirin olmaması. Ekspertlər hər bir amilin təsirini müəyyənləşdirirlər. K amillərin əhəmiyyətinin müəyyən edilməsini amillər qrupu üzrə həyata keçirmək mümkündür. Onları ranqlaşdıraraq nəzərə almaq olar ki, bir təbiətli və bir səviyyəli amil bərabər əhəmiyyətə malik olur. Fikrimizcə, müasir şəraitdə iqtisadi amillərlə bazar amillərinin əhəmiyyəti eynidir. Bu göstəricinin qiyməti həm iqtisadi, həm də bazar amilləri üçün 4 vahidə bərabərdir. Məsələn, ucqar kənd təsərrüfatı rayonları üçün beynəlxalq amillər müəyyən qədər əhəmiyyətli olsa da, ölkə ÜTT-na üzv olana qədər həmin amillərin rolu cüzidir. Bizim metodikaya görə müvafiq əmsal vahidə bərabərdi ($K_{bey}$=1). Siyasi amillərə, sosial və rəqabət amillərinə gəldikdə isə onların əhəmiyyəti praktiki olaraq eynidir və bizim metodikaya görə 3 vahidə bərabərdir. Kənd təsərrüfatının texniki potensialının yüksək əhəmiyyətini nəzərə olaraq əsas vəsaitlərin təkrar istehsalı, resurs və enerji daşıyıcıların texnologiyası, istehsal-texnoloji amllər $K_{it}$=5 əmsalı ilə hesablanır (cədvəl 4).

Cədvəl 4

Amillərin və onların əhəmiyyətindən asılılığın ranqlaşdırılması

| Göstəricilər | Əhəmiyyəti, vahid |
|---|---|
| İqtisadi amillər ($K_n$) | 4 |
| Siyasi amillər ($K_s$) | 3 |
| Bazar amilləri ($K_b$) | 4 |
| Rəqabət amilləri ($K_r$) | 3 |
| İstehsal-texnoloji amllər ($K_{it}$) | 5 |
| Beynəlxalq amillər ($K_{beyy}$) | 1 |
| Sosial amillər ($K_{sos}$) | 3 |

Apardığımız araşdırmalar göstərmişdir ki, lizinq tədiyələrinin hesablanmasına metodik yanaşmalar müxtəlif ola bilər. Bu cür hesablamaların çoxvariantlı olması müşahidə edilir. Məsələn, bəzi hallarda lizinq ödəmələri lizinq verənin iqtisadi maraqlarını ən yüksək dərəcədə əks etdirir, başqa variantlarda isə lizinq alanın

mənafelərinə üstünlük verilir. Biz bu vəziyyəti nəzərə alaraq, mövcud problemin aradan qaldırılması üçün xüsusən, maliyyə vəziyyəti müxtəlif olan müəssisələr üçün lizinq ödəmələrinin hesablanması variantlarının qiymətləndirilməsi üsulunu hazırlamışıq.

Lizinq ödəmələri hər bir lizinq əqdinin əsas elementidir və o, bir tərəfdən, lizinq verən üçün lizinq fəaliyyətinin gəlirlilik dərəcəsini qiymətləndirmək üçün ən mühüm meyar, digər tərəfdən isə lizinq alan üçün lizinqin predmetinin alınması ilə əlaqədar gözlənilən məsrəflərin kifayət qədər əhəmiyyətli oriyentiri hesab edilə bilər. Lizinq əqdi üzrə tərəfdaşlar qüvvədə olan lizinq müqaviləsi çərçivəsində bir-birinə müxtəlif xidmətlər göstərir. Mövcud bazar münasibətləri şəraitində bu xidmətlər maddi məzmun kəsb edir. Lizinq əməliyyatlarının həyata keçirilməsi prosesi bu əməliyyatların pullu olması ilə səciyyəvidir. Lizinq müqaviləsində, mövcud qanunvericilik çərçivəsində, lizinq ödəmələrinin həcmi, ödənişlərin qaydası, forması, dövriliyi tərəflərin razılaşması əsasında müəyyən edilir.

Lizinq ödəmələrinin həcminin təyin edilməsi üçün müxtəlif metodlar mövcuddur. Lakin ilk növbədə qeyd etməliyik ki, lizinq ödəmələrinin məbləğinin hesablanması konkret üsullarla, onların ödənilmə müddətləri və ardıcıllığı lizinq əqdini həyata keçirən tərəflərin razılaşması əsasında müəyyən edilir və lizinq müqaviləsinə qoşma formasında tərtib edilir. Ödəmələrin məbləği çox vaxt lizinqin növündən, xidmətin kompleksklik dərəcəsindən, amortizasiya şərtlərindən, maliyyə resurslarının mənbəyindən asılı olur.

Lizinq ödəmələrinin kənd təsərrüfatı əmtəə istehsalçıları üçün ən əlverişli həcminin təyin edilməsi üçün əsas variantları nəzərdən keçirmişik.

Lizinq münasibətlərinin inkişafı ilə əlaqədar bir çox məsələlər, o cümlədən lizinq tədiyələrinin hesablanması metodikası məsələsi hələ həll edilməmişdir, onların elmi cəhətdən işlənməsi və sınaqdan keçirilməsi tələb olunur. Bizim təklif etdiyimiz yanaşmalar bir halda lizinq verən üçün, digər halda lizinq alan üçün ən əlverişli variantları təyin etməyə imkan verir. Buna görə də biz dörd müxtəlif variantdan istifadə edilməklə lizinq tədiyələrini hesablayacağıq:

- birinci variantda əmlakın dəyəri müntəzəm qaydada ödənilir;
- ikinci variantda lizinq ödəmələrinin kəmiyyəti ödəmə dövrləri üzrə sabit olur;
- üçüncü variantda, ilk iki variantdan fərqli olaraq, lizinq tədiyələri ödəniş dövrünün sonunda deyil, əvvəlində ödənilir;
- dördüncü variantda lizinq əmlakının dəyəri müntəzəm ödənilir, tədiyələr hər dövrün axırında ödənilir, lakin ilk üç variantla müqayisədə lizinq mükafatının məbləği daha az olur və bu məqsədlə dövlətin büdcə vəsaitlərindən istifadə edilir.

Beləliklə, müqayisəli təhlil lizinq tədiyələrinin həcminin müəyyən edilməsi üçün bu və ya digər metodik yanaşmalar arasında konkret seçim etməyə imkan verir. Bir halda metodika lizinq verən üçün, digər halda isə lizinq alan üçün sərfəli



olur, lakin konkret lizinq müqaviləsi bağlanması yolu ilə konsensus əldə edilir.

Aqrolizinqlə bağlı qarşılıqlı münasibətlərin əsasını onun subyektləri qismində çıxış edən tərəfdaşlar arasında aqrolizinq əməliyyatlarının həyata keçirilməsi mexanizmi təşkil edir. Bu mexanizmin tənzimlənmiş və səmərəli olması aqrolizinq əqdləri üzrə tərəfdaşlar arasında qarşılıqlı münasibətlərin daha ahəngdar olmasına, əlbəttə, müsbət təsir edir.

Aqrolizinq mexanizminin əsas elementlərinin (planlaşdırma, maliyyələşdirmə, uçot, tərəfdaşlar arasında qarşılıqlı münasibətlər və s.) təkmilləşdirilməsi sabitliyi pozan amillərin təsirini azaltmağa və sübutlu əsası olan amillərindən əhəmiyyətli dərəcədə istifadə etməyə imkan verər. Bu baxımdan biz dissertasiyada bir sıra amilləri müəyyən etmişik. Bununla yanaşı tədqiqatın gedişində aşkar edilmişdir ki, respublikada və onun regionlarında aqrolizinq mexanizminin əsas elementləri ilə əlaqədar olan çatışmamazlıqlar bu mexanizmin səmərəsini nəzərəçarpacaq dərəcədə azalda bilər. Təklif edilən mexanizmin əsas məqsədi dövlət büdcəsindən aqrar sahədə kənd təsərrüfatı əmtəə istehsalçılarının dəstəklənməsi üçün ayrılan vəsaitlərdən səmərəli istifadə etməkdir. Bu mexanizmin əsas üstünlükləri dissertasiyada geniş şəkildə göstərilib.

Lizinq münasibətləri - elementləri və komponentləri ətraf mühit amillərinin təsirinə məruz qalan açıq sistemdir. Tədqiqat prosesində həmin sistemin təkmilləşdirilməsinin əsas strateji istiqamətlərini işləyib hazırlamağa çalışmışıq.

Aqrolizinq mexanizminin, onun səciyyəvi xüsusiyyətlərinin və nöqsanlı cəhətlərinin tədqiq edilməsi bu qənaətə gəlməyə əsas vermişdir ki, həmin mexanizmin elementlərinin daha bir neçə istiqamətdə təkmilləşdirilməsi zəruridir.

Aqrolizinq mexanizminin ayrı-ayrı nöqsanlarına baxmayaraq, bu mexanizmin tətbiq edilməsi istehsal prosesinin əsas tərkib elementləri olan əmək vasitələrinə və insanın canlı əməyinə, texnikadan və iş qüvvəsindən istifadə edilməsi dərəcəsinə bütövlükdə müsbət təsir göstərir. Lizinqin səmərəsi elmi-texniki tərəqqinin nailiyyətlərindən operativ istifadə edilməsi, fəaliyyət miqyasının genişləndirilməsi, xüsusi məsrəflərin azaldılması və bütövlükdə istehsal prosesinin intensivləşdirilməsi kimi obyektiv üstünlüklər hesabına yaranır. Lizinqin özünəməxsus səmərəsi multiplikativlik və əməyin məzmununun yüksəlməsi kimi spesifik əlamətlə fərqlənir.

İşin sonunda tədqiq edilən problem üzrə elmi cəhətdən əsaslandırılmış nəticə və təkliflər işlənib hazırlanmışdır.

**Dissertasiya işinin əsas müddəaları aşağıda dərc olunmuş elmi məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Dünya ölkələrinin təcrübəsində lizinq əməliyyatlarının inkişaf meylləri və xüsusiyyətləri / AzETKTİ və Tİ-nda «Aqrobiznesin inkişaf problemləri» mövzusunda keçirilmiş elmi-praktik konfransının materialları. Bakı: Nurlar, 2007, s. 82-87 (0,6 ç.v.)

2. Характеристика форм, типов и видов лизинга, включая агролизинг / AzETKTİ və Tİ-nun elmi əsərləri, 4 hissəli: IV h., Bakı: Nurlar, 2008, s. 204-208 (0,469 ç.v.)

3. Современное понятие экономического содержание лизинга // Аграрно-экономическая наука и технологии, № 1 (2), Тбилиси, 2009, с. 107-116 (0,63 п.л.)

4. Muradov R.A. Lizinq münasibətlərinin inkişafının retrospektiv təhlili // AMEA İqtisadiyyat İnstitutunun elmi əsərləri: 4 buraxılış, IV b., Bakı: AMEA İqtisadiyyat İnstitutu, 2009 s. 262-265 (0,38 ç.v.)

5. Формирование эффективной рыночной системы производственно-технического обслуживания сельского хозяйства Азербайджанской Республики // Аграрно-экономическая наука и технологии, № 3 (4), Тбилиси, 2009, с. 96-100 (0,313 п.л.)

6. Azərbaycan Respbulikasının aqrar sahəsində lizinqin inkişafının təşkilati-iqtisadi əsasları / AzETKTİ və Tİ-nun elmi əsərləri, 4 hissəli: II h., Bakı: Nurlar, 2009, s. 165-168 (0,363 ç.v.)

7. Aqrar sahədə lizinqin həyata keçirilməsinin təşkilati-hüquqi xüsusiyyətləri // Azərbaycan Aqrar Elmi, № 6, 2009, c. 113-117 (0,56 ç.v.)

8. Kənd təsərrüfatının maddi-texniki təcnizatında «Aqrolizinq» ASC-nin yeri və rolu / AMEA-nın İqtisdaiyyat İnstitutu, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan İqtisadçılar İttifaqında akademik Z.Ə.Səmədzadənin 70 illik yubileyinə həsr olunmuş «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri» mövzusunda keçirilmiş elmi-praktiki konfransın materialları, Bakı, Şərq-Qərb, 2010, s. 551-553 (0,25 ç.v.)

9. Kənd təsərrüfatı məhsulları istehsalçılarının maddi-texniki təcnizatının mövcud vəziyyəti / AzETKTİ və Tİ-nun elmi əsərləri, 4 hissəli: I h., Bakı: Nurlar, 2010, s. 116-128 (0,41 ç.v.)

10. Kənd təsərrüfatının inkişafında bioloji obyektlərin lizinqin zəruriliyi/ AzETKTİ və Tİ-da keçirilmiş «İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemləri» mövzusunda beynəlxalq elmi-praktik konfrans materialları. Bakı, «Şərq-Qərb»”” ASC-nin mətbəəsi, 2010, s. 142-144 (0,25 ç.v.)

11. Aqrolizinq mexanizminin təkmilləşdirilməsinin əsas strateji istiqamtələri / AMEA – nın İqtisdaiyyat İnstitutu Lənkəran Dövlət Universitetti ilə birgə «Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meylləri» mövzusunda keçirdiyi respublika elmi-praktiki materialları. Bakı: Avropa, 2010, s. 170-172 (0,2 ç.v.)

12. ” Lizinq ödəmələrinin hesablanması variantlarının müqayisəli qiymətləndirilməsi üsulu / AzETKTİ və Tİ-nun elmi əsərləri, 4 hissəli: I h., Bakı: «Şərq-Qərb» ASC, 2010, s. 181-187 (0,6 ç.v.)



13. «Aqrolizinq» proqramı və respublikada lizinq münasibətlərinin həyata keçirilməsi mexanizmi / AzETKTİ və Tİ-nun elmi əsərləri, 4 hissəli: I h., Bakı: Nurlar, 2011, s. 46-50 (0,39 ç.v.)

14. Направления развития агролизинга в Азербайджанской Республике / «Актуальные научные достижения» международная научная конференция (27 июнь-5 июль ). Прага, 2011, с. 73-75 (0,19 п.л.)

15. Современное состояние поддержки лизинговыми средствами производителей сельскохозяйственной продукции в Азербайджанской Республике // Преспективы науки, №9 (24), Тамбов, 2011, с. 173-177 (0,44 п. л)

## РЕЗЮМЕ
## МУРАДОВ РОВШАН АТЕШ ОГЛЫ

## МАТЕРИАЛЬНО-ТЕХНИЧЕСКОЕ ОБЕСПЕЧЕНИЯ ЛИЗИНГОВОГО МЕХАНИЗМА И ЕГО УСОВЕРШЕНСТВОВАНИЕ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

Диссертационная работа состоит из введения, трех глав, заключения списка использованной литературы и приложений.

Первая глава диссертационной работы называется « Теоретические основы лизингового механизма в материально-техническом обеспечении сельского хозяйства». В этой главе были рассмотрены исторический период экономического развития лизинговых отношений, а также содержание и экономическая суть лизинга, в рамках современных взглядов в т.ч. формы, типы и виды лизинга, включая агролизинг.

Вторая глава диссертационной работы называется «Современное положение материально-технического обеспечения сельского хозяйства на основе лизинговых положений». В этой главе анализируется организационно-правовые свойства, формирование лизинговых отношений в сельском хозяйстве Азербайджанской Республики, а также, существующее положение поддержки производителей сельскохозяйственных продукций лизинговым путем, в т. ч. изучены тенденции развития лизинговых услуг в материально-техническом обеспечении сельского хозяйства и оценка лизингового потенциала

Третья глава диссертационной работы называется «Пути усовершенствования организационно-экономического механизма лизинговой системы в сельском хозяйстве». В этой главе анализируется особенность лизингового развития в практике мировых стран и его применение в сельском хозяйстве республики, определение платёжеспособного спроса производителей для удовлетворения потребности техникой в сельском хозяйстве, путем лизинга, а также сравнительно оценочный метод вариантов подсчитывания лизинговых оплат, в т. ч. основное стратегическое направление развития лизингового механизма и его усовершенствования в сельском хозяйстве.

В заключительной части даются выводы и рекомендации автора, сформулированные по результатам исследования.





## SUMMARY
## MURADOV ROVSHAN ATESH

## LOGISTICAL SUPPORT THE LEASING MECHANISM AND ITS IMPROVEMENT IN AGRICULTURE

Dissertational work consists of the introduction, three chapters, the conclusion of the list of the used literature and appendices.

In introduction the urgency of the elected theme is proved, tasks are formulated the purpose, the subject and object of research, theoretical, information and methodological base, novelty of the executed work, and also are given data on approbation.

The first chapter of the thesis is called "Theoretical Foundations of the leasing mechanism in the logistics of agriculture." In this chapter we have considered the historical period of economic development of leasing relations, as well as content and the economic essence of leasing, as part of modern views including forms, types and forms of leasing, including agro leasing.

The second chapter of the thesis is called "The current situation of logistics support to agriculture on the basis of lease provisions." In this chapter have been analyzed the legal and institutional properties, the formation of leasing in agriculture of Azerbaijan Republic as well as existing state support of agricultural producers by leasing. Trends in the development of leasing services in the logistics of agriculture and evaluation of leasing capacity have been studied.

The third chapter of the thesis is called "Ways to improve the organizational and economic mechanism of the leasing system in agriculture." In this chapter have been analyzed the feature of leasing development in the practice of the world's countries and its application in agriculture of the republic, the definition of effective demand to meet the needs of manufacturers of machinery in agriculture, through leasing, as well as an evaluation method relatively options to calculate lease payments, including principal strategic direction for the development of leasing machinery and improvements in agriculture.

In a final part conclusions and the recommendations of the author formulated by results of research are given.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 322, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102



**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**МУРАДОВ РОВШАН АТЕШ ОГЛЫ**

# МАТЕРИАЛЬНО-ТЕХНИЧЕСКОЕ ОБЕСПЕЧЕНИЯ ЛИЗИНГОВОГО МЕХАНИЗМА И ЕГО УСОВЕРШЕНСТВОВАНИЕ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

**5312.01 – «Экономика отрасли»**

## АВТОРЕФЕРАТ

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2013**